Anı yaşa!

ÖMƏR SEVİNÇGÜL

# Əyləncəli fəlsəfə



## ÖLÜMÜ XATIRLA

qanun nəşriyyatı

ÖMER SEVİNÇGÜL

# Keyifli Felsefe



MEMENTO MORİ

Hər şey tarixi məhəllələrin birində kiçik bir ev almağımla başladı. Təmir vaxtı zirzəmidə sehrli bir otaq kəşf etdim və bu qəribə, yeraltı otağı yazıçı guşəmə çevirdim. Bundan sonra qəribə hadisələr baş verdi. Fəlsəfə tarixinin məşhur filosofları, mütəfəkkirləri, müdrikləri şəffaf bədənləri ilə otağımda peyda oldular. Sonra buna da öyrəşdim. Axı bu filosoflarla birlikdə fəlsəfə kitabları yazmaq, doğrudan da, maraqlı və əyləncəli olurdu. Amma ən qəribəsi odur ki, indi filosof olmayan bəzi adamlar da bu gizli otağa gəlməyə başladılar... Müslüm Baba, Dəli Ziya, Güldanə, Zəhra, Rəna və Onur. Uzun illərdən bəri arzuladığım fəlsəfə kitablarını indi qəribə qonaqlarımla birlikdə yazıram.

Kim dedi ki, fəlsəfə darıxdırıcıdır? Oxuduğunuz bütün darıxdırıcı fəlsəfə kitablarını unudun! Bu kitabda fəlsəfə yoxdur! O, fəlsəfənin mahiyyətini açır, oxucunu filosof edir. Bu otaqdakılar sərbəst şəkildə sual verə, fikir yürüdə, tənqidi fikirlərini söyləyə bilərlər. Əlinizdə tutduğunuz bu kitab isə materializmlə idealizmin, dinsizliklə dinin əbədi mübarizəsinə həsr olunub.

## Ömər Sevinçgül

Yazıçı olmağa orta məktəb illərində qərar verib. Əsərləri gənc oxucuların marağına səbəb olduğundan "gənclik kitablarının yazıçısı" kimi tanınıb. Yazıları və hekayələri ədəbi jurnallarda dərc olunub. Gənclər üçün televiziyada incəsənət, ədəbiyyat və fəlsəfə mövzusunda verilişlər hazırlayıb, ölkədə və xaricdə seminarlar təşkil edib.

Vaxtilə dövlət müəssisələrindən birində mühəndis işləyib. 1996-cı ildə Müasir Mədəniyyət Mərkəzini yaradıb. Bir qrup orta məktəb və universitet tələbəsi ilə birlikdə "Adı Yok" jurnalını nəşr etdirib. 2005-ci ildə "Carpe Diem" Nəşriyyat Evini yaradıb və doqquz il onun müşaviri olub. Gənc yazıçıların yetişdirilməsinə öz töhfəsini verib. Kitabları ingilis, alban, Bosniya, ərəb və alman dillərinə tərcümə olunub.

*youtube / yazaromersevincgul*
*instagram / yazaromersevincgul*

**Türk dilində nəşr olunan kitabları**

- Keyifli Felsefe – Baba Filozoflar
- Keyifli Felsefe – Tabula Rasa
- Keyifli Felsefe – Memento Mori
- Keyifli Felsefe – Carpe Diem
- Seni Seven Biri Var
- Sonsuz Hayat Seni Bekliyor
- Her Şey Ânını Bekler
- Sana Yeni Bir Dünya Gerek
- İnanıyorum Öyleyse Varım
- Sonra Bir Gün O Geldi
- Beni Bana Bırakma
- Sana Hayret Yakışır
- Sıradan Biri Olmak İstemiyorum
- Kulluğum Sultanlığımdır
- Şiraz ve Şehzade
- Şiraz ve Sultan
- Bir Gizli Hazine idim
- Sırlar Mağarası
- Sırlarla Dolu Bir Adam
- Gizemli Gölgeler Ülkesi
- Hayat Sevince Güzel

- Uykumu Geri Ver!
- Kalbinin Sesini Dinle
- Beni Yalnız Sen Anlarsın
- Yazar Olmak İstiyorum
- Anne Neden Kedilerin Elleri Yok?
- Sensiz Ama Seninle
- Her Yerde Seni Aradım
- Sakın Arkana Bakma!
- Mervin – Beni Ararsan Bulursun
- Mervin – Esaretten Kurtuluş
- Küçük Lügat

**İngilis dilində nəşr olunan kitabları**

- The Eternal Life Awaits You
- Short, Easy, Fun Philosophy
- There is One Who Loves You
- Life is Beautiful When One Loves
- 'Mervin' Search, and You Will Find Me

**Ərəb dilində nəşr olunan kitabları**

- Al-Hayatu jamilah indama Nuhib
- Falsafah Khafifah Zarifah
- Al'Hayatu L-abadiyyah Tantaziruk
- Mervin in Tabhas Ânnî Tadjidni
- Mervin Annajatu Mina Al-asr
- Hunâlika Man Yuhibbuk

**Alman dilində nəşr olunan kitabları**

- Es gibt "jemanden", der dich liebt
- Das ewige Leben wartet auf dich!
- Du brauchst eine neue Welt!
- Ich konnte dich nicht dir selbst überlassen
- Mervin du findest mich, wenn du mich suchst
- Alles wartet auf sein moment
- Vertraue dich dem Besitzer deines Herzens an
- Ohne dich aber doch mit dir

**Bosniya dilində nəşr olunan kitabları**

- İma Neko Ko Te Voli

**Alban dilində nəşr olunan kitabları**

- Ja , Kjo Eşte Jeta

Yenə də evimin altındakı sirli otaqdayam. Əvvəlki qeydlərimdə bu otaqdan bəhs etmişdim. Burada qısa xülasə vermək istərdim.

Çox qədim bir ev almışdım. Təmir və təmizlik işləri apararkən evin altına enən bir pilləkən aşkar etdim. Əlimdə şamla, içimdə qorxu hissi ilə yüzlərlə pilləni endikdən sonra tamamilə qaranlıq bir otaqla qarşılaşdım. Nə qapısı var idi, nə də pəncərəsi. Divarlarda Bizans dövründən qalma rəsmlər və yazılar gördüm.

Fəlsəfə kitablarımı bu sehrli otaqda yazıram. Ətrafım dəvət olunmamış qonaqlarla doludur. Cismsiz bədənlərini görə bilirəm. Onların çoxu qədim dövrlərdə yaşamış və ölmüş filosoflardır. Vaxtaşırı onlara da söz verirəm.

Qonaqlarım arasında filosof olmayanlar da var. Otağıma necə gəldiklərini nə mən bilirəm, nə də özləri. Dəli Ziya, Müslüm Baba, Güldanə, Rəna və Onur həmişə yanımdadırlar. Bu dəfə isə Zəhra adlı bir lisey şagirdi bizə qoşuldu.

Dəli Ziya, məzar daşına "Həyat bir gündür, o gün bu gündür" yazdıran şəxsdir. Elm sahibidir. Niyə ona "dəli"

dediklərini bilmirəm. Ağ paltarlı Müslüm Babanı tanıyırsınız. Güldanə, gül satan qaraçı qızıdır. Rəna fəlsəfəyə marağı olan qeyri-adi bir məktəblidir. Məktəbdə “Tabula Rasa” adlı fəlsəfə klubu qurub. Onur isə bu klubun üzvlərindən biridir.

Hər gün gecə yarısından sonra sirli otağıma enir, üstündə iki kəllə olan qədim masanın arxasında oturur, şamları yandırır və yazmağa başlayıram. Filosofların və digər qonaqlarımın önəmli töhfələri olur.

Bu otağın başqa xüsusiyyətləri də var. Bəlkə gələcəkdə bir az da danışaram. Kitablarımı yazdığım müddətdə sehrli otağımdan heç kimə bəhs etməməyə qərar vermişəm. Sehr pozula bilər.

Pişiyim Təvafüq həmişə mənimlədir. Nə vaxt pilləkənlərə tərəf yönəlsəm, ardımca gəlir və yanımdan ayrılmır. İki kəllənin arasını özünə yer edib. Səslər yüksəldikdə qulaqlarını şəkləyir və diqqətlə dinləyir, başqa vaxtlarda isə mürgüləyir.

Beləliklə, mətləbə keçim. Qonaqlarım məni gözləyir. Hər bir insanı maraqlandıran əsas mövzuları müzakirə etməyə davam edəcəyik.